**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXXVII buraxılış, Bakı, 2019

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXXVIIвыпуск, Баку, 2019

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXXVIIedition, Baku, 2019

**UOT 78.03**

**İlham Nəzərov**
**Əməkdar Artist**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı**
**AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli 98**
**E-mail**: ilhamnazarov@yahoo.com

# MÜSLÜM MAQOMAYEVIN AKTYORLUQ FƏALİYYƏTİ VƏ ROL ÜZƏRİNDƏ YARADICILIQ PROSESİNİN STRUKTURU

\

**Xülasə:** Məqalədə M.Maqomayevin aktyorluq fəaliyyəti və onun təzahür formalarından danışır. Belə ki, müğənninin aktyor kimi fəaliyyəti müxtəlif musiqili konsertlər və müğənni haqqında olan film konsertlərdə öz əksini tapır. Məqalədə M.Maqomayev tərəfindən "Nizami" filmindəki obrazı dəyərləndirilir. İfaçının aktyorluq baxımından rol üzərində işinin sturukturuna aydınlıq gətilir.

**Açar sözlər:** M.Maqomayev, bariton, müğənni, aktyor, kino, Nizami, mahnı.

M.Maqomayevin ifaçılıq üslubunu müəyyən edərkən onun aktyorluq qabiliyyəti ifaçılıq manerasının əsas komponenti rolunu oynayır. Müğənninin yaradıcılığına nəzər yetirdikdə M.Maqomayevin aktyor kimi fəaliyyətinin istiqamətlərini aşağıdakı kimi verə bilərik:

1)Opera aktyoru kimi
2) Kino aktyoru kimi;

Bu da öz növbəsində aşağıdakıları özündə səciyyələşdirir:

*Opera aktyoru kimi – opera teatrı səhnəsində canlandırdığı obrazlar;*
*Kino aktyoru kimi:*
*a)filmlərdə obrazlı şəkildə canlandırdığı operalardan parçalar;*
b)aktyor kimi kinofilmdə ifa etdiyi obraz;
c)musiqili filmlər;

Düzdür, onun opera səhnəsində bir opera artisti kimi fəaliyyəti C.Rossininin "Sevilya bərbəri" və C.Puççininin "Toska" operası ilə yekunlaşır. Bildiyimiz kimi, görkəmli ifaçı adlarını qeyd etdiyimiz operaları SSRİ-nin bütün ölkələrində oynamışdır.

Ancaq M.Maqomayevin opera səhnəsində aktyorluq qabiliyyətini dəyərləndirmək üçün çox təəssüf olsun ki, bizim əlimizdə həmin tamaşaların görüntüsü yoxdur.

Aktyor kimi fəaliyyətinin digər bir vacib sahəsi onun filmlərdə obrazlı şəkildə canlandırdığı operalardan parçalardır:

1) M.Maqomayev "Şah İsmayıl" operasından Aslan şahın ariyası;
2) C.Verdi "Riqoletto" operasından Riqolettonun ariyası;
3) Ş.Quno "Faust" operasından Mefistofelin kupletləri;
4) P.Çaykovskiy "Evqeni Oneqin" operasından Evqeni Oneqinin ariozosu

Aktyor kimi filmdə canlandırdığı obraz:

1)"Nizami" (1982)

Görkəmli müğənni M.Maqomayev "Nizami" filmində baş rolu oynamışdır. O, dahi şairimiz Nizami Gəncəvinin obrazını canlandırmışdır.

""Azərbaycanfilm" və "Mosfilm" kinostudiyalarının birgə istehsalı olan iki seriyalı "Nizami" bədii filmi 1983-cü ildə Leninqradda (indiki Sankt-Peterburq şəhəri) keçirilən XVI Ümumittifaq kinofestivalında uğur qazanmış, Nizaminin humanist pafosunun ekran təcəssümünə görə rejissor E.Quliyevə mükafat verilmişdi. 1984-cü ildə Daşkənddə Asiya, Afrika və Latın Amerikası ölkələrinin beynəlxalq kinofestivalında film Özbəkistan Yazıçılar İttifaqının və Nazirlər Sovetinin diplomları ilə təltif olunmuşdur" [9,1]

Filmin operatoru A.Nərimanbəyov, rəssamı M.Ağabəyov, bəstəkarı Q.Qarayevdir. Rollarda H.Ömərova, H.Turabov, Ə.Abbasov, Ş.Ələkbərov, H.Xanızadə, Ə.Səmədov və başqaları çəkilmişlər.

M.Maqomayev "Nizami" obrazını böyük ustalıqla yaratmışdır. Qeyd etmək istərdik ki, Nizami obrazı M.Maqomayevin kinofilm sahəsində peşəkar aktyor kimi yaratdığı ilk obrazdır. Obraz xarakterinə görə öz təbiiliyi ilə seçilir və inandırıcılığına görə böyük ustalıqla oynanılmışdır. Müğənni dramatik aktyor kimi obrazın ötürülməsini yüksək səviyyədə həyata keçirir.

Filmin rejissoru E.Quliyev M.Maqomayevin Nizami rolunun ifasını belə dəyərləndirir: "Mənə Nizami obrazını canlandırmaqdan ötrü təmiz və zəngin mənəvi aləmə sahib insan lazım idi. Müslüm məhz belədir. Ona görə mən onu filmə dəvət etdim. Onunla işləmək mənim üçün məmmuniyyətdir. Hər bir işinə böyük məsuliyyət və peşəkarlıqla yanaşan Müslüm, bu dəfə də unudulmaz obraz yaratdı" [6, s.146]

M.Maqomayevin kinoya olan marağının kökləri gənclik illərinə gedib çıxır.
O, müsahibələrində aktyorluq sənətini sevdiyi vurğulayaraq kinoya olan məhəbbətin hələ onda uşaq yaşlarından yarandığı qeyd edir. Ona gənclik illərindən filmlərdə rol almaq təklif olunurdu. İlk dəfə olaraq filmdə obraz canlandırmaq təklifi müğənniyə 20 yaşında olarkən edilmişdir. Onu A.Darqomijskinin "Daş qonaq" operasında və A.S.Puşkinin "Kiçik faciələr"ində rol almağı kinorejissor K.Qorriker dəvət edir. Müğənni öz xatirələrində belə qeyd edir: "Kinorejissor K.Qarriker istəyirdi ki, mən A.Darqomijskinin "Daş qonaq" operası və A.S.Puşkinin "Kiçik faciələr"ində rol alım... Ancaq mən təklif üzərində düşünməyə başladım: A.Darqomijski partiyanı tenor üçün yazmışdır, mən isə baritonam. Həmçinin, hamıya məlumdur ki, Don Juan cavan oğlan deyildir.Məndə öz 23 yaşımda daha da cavan görünürdüm – arıq, ucaboy, cansız..." [5, s. 105]
M.Maqomayev qeyd olunan səbəblərə görə təklifdən imtina edir.

Digər təklif "Земля Санникова" filmində baş rolu canlandırmaq idi. Müğənni yenə də imtina etməyə qərar verir. Səbəbi isə özünə qarşı olan tələbkarlığıdır: "Oxumaq

başqa, səhnədə vokal dramatik rolları canlandırmaq tamamilə başqadır, səhnə ustalığı qanunları daxilində təbii və sərbəstcəsinə dialoq aparmaq, ekranın ciddi çərçivələrində özünü aparmaq isə tamamilə başqadır” [5, s. 105]

Qeyd olunanlardan müğənninin həmişə özünəqarşı tələbkarlıqla yanaşdığını görərik. Təklif olunan rolları dəyərləndirərək, özünün sırf peşəkar kinoaktyor olmaması səbəbindən imtina etmişdir. Çünki o, hər bir fəaliyyət sahəsinə böyük məsuliyyətlə yanaşır. “Müğənni oxumalıdır” fikri ilə yanaşaraq, bir çox cəlbedici təkliflərdən imtina edirdi. Lakin “Nizami” filimində rol almağı isə qəbul edir. O, belə deyir: “Kino həmişə ifadə vasitələrinin zənginliyi, geniş imkanları ilə mənim diqqətimi cəlb etmişdir....E.Quliyevin təklifi mənə qeyri-adi və cəlbedici göründü və ilk olaraq sırf kinomatoqrafiya xarakterli olmaması məni düşünməyə vadar etdi. Burada Nizaminin-mütəfəkkir, dünya mədəniyyətinin zirvəsində səkkiz əsr sönməz ulduz olan poeziyamızın korifeyinin ilk obraz təcəssümündən söhbət gedirdi [2].

M.Maqomayevin ilk rol aldığı film “Azərbaycanfilm” kinostudiyasının lentə aldığı “В ритме горящего сердца” (“Yanan ürəyin ritmində”) film konsertidir. Filmin ssenarisi M.İbrahimbəyov və rejissor isə T.Tağızadədir. M.İbrahimbəyov müsahibələrində həmişə onu istedadlı insanların taleyi cəlb etdiyini vurğulayaraq belə bir mövzunun böyük maraq kəsb etdiyini və məsuliyyətli iş olduğunu vurğulayır. Qeyd etdiyimiz kimi, film müğənninin rol aldığı ilk filmdir. Müğənni belə qeyd edir: “Kinoda mən ilk dəfədir ki, çıxış edirəm, həmin filmə qədər mənə kinoda rol almaq kimi çoxlu təkliflər edilmişdir.İlk dəfə olaraq A.Zarxa “Anna Karenina” əsərində knyaz Vronskinin, daha sonra A.Darqomijskinin “Daş qonaq” film-operasında və nəhayət mənə bu yaxınlarda Moskvadan Ostap Bender obrazını ifa etmək üçün dəvət etmişdirlər,ancaq mən imtina etmişəm.

Bu dəfə mənim filmdə repertuarım 14 mahnıdan ibarət olacaqdır. Burada mənim ən yaxşı mahnılarım yer alacaqdır. Yeni mahnıların da səslənəcəyini düşünürəm” [4].

M.Maqomayevin yaradıcılığında film konsertlərin yeri və əhəmiyyəti çox böyükdür/ Film-konsertlərin və musiqili konsertlərin məqsədi ifaçının canlı konsertlərinə düşə bilməyən çoxsaylı tamaşaçını müğənninin ifalarını dinləməsi imkanını yaratmaq idi. Onları nəzərdən keçirdikdə iki növdə ayırd edə bilərik: a) musiqili konsertlər b)müğənni haqqında olan film konsertlər

Musiqili konsertlər:

1) “Осенный концерт” (“Payız konserti”) (1962)
2) “Голубой огонёк” (“Mavi alov”) (1963)
3) “Голубой огонёк” (“Mavi alov”) (1964)
4) “Когда песня кончается” (“Mahnı sonlananda”) (1964)
5) “В первый час” (İlk saatda”) (1965)
6) “Сказки русского леса” (“Rus meşəsinin nağılı”) (1966)
7) “Люблю тебя, жизнь!” (“Səni sevirəm, həyat!”) (1967)
8) “Похищение” (“Oğurlanma”) (1969)
9) “Москва в нотах” (“Moskva notlarda”) (1969)
10) “Ритмы Абшерона” (“Abşeronun ritmləri”) (1970)
11) ”Поющая земля” (“Oxuyan torpaq”) (1981)
12) “Любит или не любит” (“Sevir, yoxsa sevmir”)

Film konsertlərdə müğənni özünü yeni ampluada göstərir və həmin filmlər onun aktyorluq qabiliyyətini hərtərəfli şəkildə əks etdirir. M.Maqomayev haqqında olan film konsertlərin sayı 4-dür. Yalnız "Yarımçıq serenada" filmində o həm də əsas rolun ifaçısı olmaqla yanaşı, həmdə bəstəkar kimi də çıxış edir:

1)"До новых встреч, Муслим!" ("Yeni görüşlərədək,Müslüm!") (1963)

2)"Поет Муслим Магомаев" ("Oxuyur Müslüm Maqomayev") (1971)

3)"Возрождение" ("İntibah")(1972)

4)"Прерванная серенада" ("Yarımçıq serenada") (1979) (əsas rol, bəstəkar)

M.Maqomayevin aktyorluq qabiliyyətinin xüsusiyyətlərindən danışdıqda onun parodiyalarını (parodiya-təqlid etmə) mütləq vurğulamaq lazımdır. Diqqətinizə çatdırmaq istərdik ki, M.Maqomayevin "Колобок" ("Kolobok" jurnalı əlavə olaraq yumşaq qramplastinkalı uşaqlar üçün nəzərdə tutulmuş illustrasiyalı musiqili ədəbi jurnaldır. 1969-1992-ci illərdə çıxmışdır. "Кругозор" jurnalına əlava kimi nəşr olunurdu) jurnalında parodiyalardan ibarət plastinkası (lent yazısı) çıxmışdır. O, Q.Ots, F.Şalyapin, R.Behbudov, P.Bülbüloğlunu təqlid edir.

"Bremen musiqiçiləri" cizgi filmində ikinci hissəsini M.Maqomayev səsləndirmişdir. Burada M.Maqomayev özünün aktyorluq qabiliyyətinin digər tərəfini – peşəkar səs təqlidi ustası kimi göstərdi. Onun səsini ilk baxışdan tanımaq çətindir. Məhz bu amil onun müxtəlif tembrlərlə ifa etmə bacarığını göstərir. Bu əsil obraz təccəssümüdür.

Biz M.Maqomayevin aktyorluq qabiliyyətinin müəyyənləşdirən zaman ifaçının hər hansı bir obrazı yaradanda müəyyən bir sistem əsasında həyata keçirdiyi qənaətinə gələ bilərik. Təbii olaraq, burada onun aktyorluq üslubunu bir model kimi sistemləşdirmək mümkündür. Bu zaman biz ifaçının hər bir rola böyük məsuliyyət və böyük məhəbbətlə yanaşdığının şahidi oluruq. O, janrından asılı olmayaraq rolu tarixi kontekstdə öyrənir. Bu ilk olaraq obrazda həqiqiliyin əldə olunmasına xidmət edir.

Ümumiyyətlə, aktyorluq qabiliyyətinin ifaçının yaradıcılıq yolunda əhəmiyyəti böyükdür. V.İ.Sadovnikov isə belə qeyd edir: "Dinləyiciyə maraqlı olmaqdan ötrü artist maksimal dərəcədə aktyorluq ustalığına malik olmalıdır. Daima daxildən gələn hərəkətlə və əks olunan obyektlə ünsiyyət vasitəsilə öz səsinin çalarları və ciddi seçilmiş mimik hərəkətlər və görünən fiziki hərəkətlərlə əks olunan hadisələrə öz münasibətini qurmalıdır" [7, s.114 ].

M.Maqomayevin aktyorluğundan danışarkən burada yüksək professionallıq, artistizm, inandırıcılıq, təbiilik, mükəmməlliyə can atma, tamaşaçı qarşısında məsuliyyət, sərbəstlik və səmimilik kimi keyfiyyətləri vurğulaya bilərik. İfaçının aktyorluq qabiliyyətini nəzərdən keçirdərək aşağıdakı kimi sistemləşdirmək olar:

Müğənninin aktyorluq üslubuna ilk öncə hisslərin emosionallığı ilə seçilməsi və öz qəhrəmanı ilə yaşamaq xasdır. Yuxarıda qeyd etdiyimiz kimi, onun yaradıcılığında insanın daxili aləminə məxsus bütün hiss və həyacanların əksi öz təbiiliyi ilə seçilir. İfaçı obrazı özündə bütün tamlığı yaşayır və obrazın həqiqi təccəssümü aktyorluq sənətində əsas kriteriya rolunda çıxış edir.

K.S.Stanislavski səhnə yaradıcılığının təbiəti haqqında danışarkən obrazın səhnə təcəssümünü yaradıcılıq prosesi zamanı ona doğru olan *fənd* və *yol* adlandırır [8, s. 212] Bu bir mürəkkəb prosesi özündə əks etdirərək obrazın tamlığını yaradılmasına kömək olur. Burada iki vəziyyət özünü göstərir: *təsəvvür və dərk.* Məhz M.Maqomayevin aktyorluq fəaliyyətinin özülündə həmin keyfiyyətlər durur.

Biz bilirik ki, M.Maqomayev hərtərəfli istedada malik bir şəxsdir. Onun rəssamlıq və heykəltəraşlıq bacarığı obrazın daha dərindən ifa edilməsinə, öz qəhrəmanının yeni tərəflərini üzə çıxartmağa, düşündüyü obrazın reallaşdırılmasına yardımçı olmuşdur. K.S.Stanislavskinin vurğuladığı kimi, bu dərin, tam psixofiziki, bütöv bir vəziyyəti özündə cəmləşdirən subyektin hal və vəziyyətidir.

Biz dahi müğənninin Riqoletto (C.Verdinin "Riqoletto" operasından) obrazını göstərə bilərik.

Diqqət çəkən məqamlardan biri isə M.Maqomayevin obrazların yaranmasında ifaçılıqdan başqa peşəkarcasına qrim ustası kimi də özünü göstərməsidir ki, bu hal onun heykəltəraş və rəssam kimi bacarıqlarının olmasından irəli gəlir. Vurğuladığımız keyfiyyətlərin onda artıq uşaqlıqdan özünü biruzə verməsi V.Buxanovun 1961-ci ildə "Azərbaycan qəzet"ində "Müslüm ulduzu parlayır" adlı məqaləsində belə əks olunmuşdur: "O, vatman kağızı üzərində Verdi operasından faciəli qozbelin rəsmini öz təsəvvürünə uyğun sürətdə çəkir. Sonra məsum çöhrəsini qrimləyir, məxmər süfrəyə bürünür, krujevalı kişi yaxalığı əvəzinə boynuna nənəsinin krujevasını salır. Bağlı qapı arxasında "Riqoletto" operasından sevimli ariyanı səsləndirmək üçün öz-özünü imtahan edir".

Müğənninin Riqoletto obrazı ilə tanışlığı uşaqlıq illərinə təsadüf edir. O, müsahibələrində "Поэт Муслим Магомаев" (1971) adlı film konsertdə hələ məktəbdə oxuyarkən opera teatrında "Riqoletto" operasını dinlədiyini, gördüyü və eşitdiklərinin onda böyük təəssürat yaratdığını vurğulayır. "Mən evə qayıdan kimi özümə təsəvvür etdiyim kimi "bədbəxt donqabel"in rəsmini çəkdim" [10]. Həmçinin ifaçı üzünü akvarel boyası ilə rənglədiyini və geyim üçün nənəsinin süfrəsindən istifadə etdiyini deyir. Beləliklə, bağlı qapılar arxasında Müslüm Maqomayevin Riqoletto obrazı ilə ilk cəhdi baş tutmuşdur. "Bədbəxt təlxək obrazı, onun gücsüz qəzəbi və yalvarışı hələ də mənim üçün qiymətlidir" [10].

Həmçinin M.Maqomayevin obrazın təcəssümü özündə personajla tanışlıq, obrazın daxili aləminin öyrənilməsi, xarici görünüş baxımından oxşarlığın əldə olunması və sonuncu olaraq obraz və aktyorun vəhdət təşkil olunması mərhələlərindən keçir. Dediklərimizə sübut olaraq, müğənninin "Nizami" filmində canlandırdığı dahi şair Nizami obrazı və onun ifası haqqında olan müsahibəsini tədqim edirik: "Bu mənim kinoda ilk debütümdür. Oxuyuram, şəkil çəkirəm, bəstələyirəm, ancaq kinoda rol almaq isə birinci dəfədir. Rejissor E.Quliyevin təklifi mənim üçün gözlənilməz oldu. XII əsrin dahi şairi və mütəfəkkiri, titan şəxsiyyətinin obrazını yaratmaq təsəvvür edilməz dərəcədə məsuliyyətli və mürəkkəbdir. Ancaq belə bir cəhd məni gözləyirdi... Qeyri-adi olması, gözlənilməzliyi, təbii olaraq obrazın miqyaslılığı və dərinliyi məni cəlb etdi. Ancaq deyim ki, rola həmin an razılıq verməmişəm.İndi mən Nizaminin heyrətamiz dünyasında yaşayıram. Onun poemalarını və onun haqqında olan kitabları oxuyuram. Özümə şairin necə göründüyünü, necə hərəkət etdiyini, danışdığını, düşündüyünü nə sevdiyini və nəyi xoşlamadığını təsəvvür edirəm. Onun obrazlarının necə yarandığı, necə şeir yazdığı və onları necə oxuduğunu özümdə canlandırıram... Bizə bütün Azərbaycan klassik poeziyasının dahisi haqqında ətraflı məlumatlar, avtoqraf, şəkil və ya onun xarici görünüşü barədə gəlib çatmamışdır. Ona görə əsrlərin qaranlığının bizdən uzaqlaşdırdığı Nizami şəxsiyyəti düşüncəmizə yerləşməyərək yaradıcı təsəvvürümüzü və fantaziyamızı oyadır [3].

Onun adları yuxarıda qeyd olunan istənilən film konsert olsun, istərsə də musiqili konsertlərində yaratdığı obrazları qiymətləndirdikdə həmin obrazların mükəmməl şəkildə yaradılması və böyük peşəkarlıqla ifa olunmasına görə fərqlənirlər. Yəni, onun ifasında personajların hər birinin özünün xarakterik xüsusiyyətləri vardır. M.Maqomayev həmişə obrazın yaradılmasında təkrarçılığa qaçmır, əksinə özünəməxsus təfsir yanaşmasını ortaya qoyur. Müğənninin əsas məqsədi belə demək olarsa qəhrəmana "hoparaq" onu yeni ştrixlərlə, rənglərlə zənginləşdirməkdir.

**Илхам Назаров**

**Актерская деятельность Муслима Магомаева и структура творческого процесса создания роли**

**Резюме**

В статье рассказывается об актерской деятельности М. Магомаева и его формах проявления. Таким образом, деятельность певца как актера отражается в различных музыкальных концертах и фильм концертах. В статье анализируется образ М. Магомаева в фильме «Низами». Уточняется структура работы актерского мастерства М.Магомаева.

**Ключевые слова:** М.Магомаев, баритон, певец, актер, кино, Низами, песня.

**Acting Muslim Magomaev and structure of the creative process of creating a role**

**Summary**

The article describes the acting of M. Magomayev and his forms of manifestation. Thus, the activities of the singer as an actor are reflected in various music concerts and film concerts. The article evaluates the image of M. Magomayev in the film "Nizami." The structure of the work of the acting skills of M. Magomaev is being specified.

**Keywords:** M.Magomayev, baritone, singer, actor, movie, Nizami, songs.

**Ədəbiyyat:**

1. Kazımzadə A. "Nizami və kino"// Mədəniyyət qəzeti. 25.07.2012.
2. Абдуллазаде К., Голдштейн Л. "Земля-родина любви"// Бакинский рабочий. 2.07.1982, с.3.
3. Агаев Э. "Магомаев игтает Низами"// Литературная газета. 08.IX.1982.
4. Главный герой-песня// Молодежь Азербайджана. 14.VII.1970, с.4.
5. Магомаев М. Любовь моя мелодия. Москва: Изд.ВАГРИУС, 1999, 160 с.
6. Надеждин Н. Муслим Магомаев: Солнечный голос. Москва. Майор Осипенко А.И.2010, 193 с.
7. Садовников В.И. Элементы художечтвенно-исполнительского становления певца//Вопросы вокальной педагогики. Вып.4. М.:1969, 232 с.
8. Станиславский К.С. Искусство актера и режиссора// К.С.Станиславский об искусстве театра.-М.ВТО. 1982.
9. http://anl.az/el/emb/nizami/filmler/film5.html
10. https://www.youtube.com/watch?v=ilanDItkh28

**Məqalənin redaksiyaya daxil olma tarixi: 21.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27.05.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 15.06.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**